

Mayisə Əsədullaqızı

## DANIŞSAM...

*(Bir şəhidin dəfnində olarkən)*

Gözləri yaş gözəllərin bəyi yox,
Sevdikləri getdi, daha nəyi yox?!
Vay-şüvən etməyə daha heyi yox,
Bu dərdlərdən,özün qurtar, ay Allah,
Düşmənlərin bağrın qopar, ay Allah!

Talanıb-çapıldı, yandı bu oba,
Dərdlərim var,sıra-sıra, ay baba!
Danışsam, ürəyin dözəmməz, toba,
Toyumuz matəmə qalandı Allah!
Dağımız-daşımız odlandı, Allah!

Dedim, Allah, bu nə biçim, bölümdü?
Ölüm varkən, axı bu nə zülümdü?!
Çəmənlərdə qan ağlayan gülümdü,
Bəlkə həssas,qəlbi qarayam Allah!
Bir ömür yolunda yarayam, Allah!

## BƏLKƏ DƏ

Bəlkə də, qovuşmadıq,
Yerdən Günəşəcən
Hicran var aramızda...
Vüsal nəğməsi səslənsə də,
Həsrət qalamızda.
Sevgin bir ömürlük,
Hisslərin bölük-bölük...
Ürəyin yoxdu gümanı,
Fələyin yanıb imanı...
Danışa bilmirsən,
Məhkumlar kimi,
Qəlbini təşviş bürüyür,
Sabaha olan ümidlərin əriyir...
Ax, lənətə gəlmiş ürək,
Bir kilid lazımdı,
Səni kilidləməyə,
Sevgiləri kiritməyə!!
Həsrəti birdəfəlik əritməyə!
Qalasan dəmir qəfəsdə,
Buz nəfəsdə...
Pis dillərdən düşəsən,
Dəmir kiliddə kiriyəsən...

## SƏMANIN AL GÜNƏŞİ

Yağış yağır, damcı-damcı,
Ürəklərə qəm ələnir,
Acı-acı.
Həm də, zülmətə bürünmüş bu gecəyə
Kədər verir, yağan yağış,
Damlaları naxış-naxış.
Amma mənə elə gəlir, vallah bu heç
Yağış deyil,
Səma adlı bir gözəlin,o mənalı gözlərindən
Axan yaşdı!
İtirdiyi sevgisinə sadiq qalıb, saxladığı
Qara yasdı!
Yəqin səma itirdiyi günəş üçün
Yas saxlayır,
Görən hara getdi günəş?
Bəs nə üçün itdi günəş?
Görən nə vaxt qayıdacaq səmasına?
Nə vaxt qovuşacaq səma,
Günəş adlı isti, qaynar, həzin
Sevgi dünyasına?
Görən səma dözəcəkmi günəşinə
Qovuşmaqçın?
Yoxsa elə sübhə kimi ağlayacaq?
Ağlayacaq həzin-həzin, kövrək-kövrək,
Ürəyini dağlayacaq?
Ulduzlar dilə gəldilər, dedilər ki, bu nisgilli
İncə qəlbli səmamıza,
Ürəyini ağrıtmasın, gözdən leysan yağdırmasın!
Fırtınalar qoparmasın!
Zaman gələr, vaxt yetişər,
Yəqin sənin də haqqın var,
Bir səhər günəşin gələr!
Ağlamaqdan solan çöhrən yenə gülər!
Arzum budur bir kimsənin səmasından
Al günəşi itməsin,
Qəlbində həsrət kölgəsi bitməsin!

Ədalət.2017.-27 aprel.-S.4.